Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Yardımlı icra başçısı işdən çıxarıldı, rayonda əməliyyat olub

3 saat öncə




Ayaz Əsgərov

Sentyabrın 15-də prezident **İlham Əliyev Ayaz Əsgərov**u Yardımlı rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edib. Prezidentin sərəncamında bunun səbəbi açıqlanmayıb.

Amma elə həmin gün yerli mediada Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin aprel ayında bu qurumda anti-korrupsiya əməliyyatı keçirməsi ilə bağlı məlumat yayılıb.

Məlumata görə, icra hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini **Elçin Mirzəyev** və baş məsləhətçi **Yaşar Eyvazov** saxlanılıb.

Məhkəmənin qərarı ilə onların barəsində həbs-qətimkan tədbiri seçilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən faktı APA-ya təsdiqləyiblər.

Amma onların nədə ittiham edildiyi açıqlanmır. Məsələyə sözügedən şəxslərin yaxınlarından münasibət almaq mümkün olmayıb.

A.Əsgərov 10 il idi Yardımlı rayon İcra Hakimiyyətinə rəhbərlik edirdi. O, daha əvvəl Qazax rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində də çalışıb. Ondan işdən çıxarılmasına münasibət almaq mümkün olmayıb.

Son illər Azərbaycanın bir çox rayon icra hakimiyyətlərində oxşar əməliyyatlar keçirilib. Hətta bir çox başçılar həbs edilib.

İcra başçılarının həbs dalğası, əsasən, 2019-cu ilin dekabrından başlayıb. Həmin vaxt Yevlax və Ağstafa rayonlarında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) oxşar əməliyyatlar keçirmişdi. Ardınca bu proses Neftçala, Biləsuvar, İmişli, Kürdəmir, Cəlilabad və Şəmkir rayonlarında davam edib. Onlar mənimsəmə, vəzifə səlahiyyətini aşma və başqa ittihamlarla həbs ediliblər. Bəziləri tam, bəziləri də qismən ittihamları rədd edib.




## Buna da bax:

Azərbaycanda nə qədər icra başçısı həbs edilib?

Həbs edilən 9 icra başçısı: 'Azərbaycanda məmurların həbsi artıq ciddi qəbul edilmir'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur